

*Mənzər Niyarlı*

# ÖLÜMLƏ ÜZ-ÜZƏ

## Rəfiqəm, istedadlı yazıçı, sənətşünas Sara xanıma

Gecə ölüm xofuyla yerinə uzandı. Yuxuda da ölüm ondan əl çəkmirdi;lap nağıllardakı yeddibaşlı divə oxşayırdı. Əynində də cəllad paltarı; başdan-ayağa qırmızı geyinmişdi. Onun yatdığı yerə - düz üstünə gəlirdi. Kötüyə oxşar qollarını uzadıb, iti dırnaqlarını boğazına keçirib boğmaq istəyir, osa boğula-boğula onu özündən kənar etməyə çalışırdı. Ölüm əl çəkmirdi. Sonra əlini qadının boğazından çəkib döşünə sarı sürüşdürdü. O, daha da vahimələndi, əlləriylə qız döşü kimi yumru, ağappaq döşlərinin qabağını kəsdi. - Toxunma döşümə. Öldür məni, ancaq toxunma mənə.

Ölüm dişlərini qıcadı:

**- Qorxma, döşlərinə toxunan yoxdu, şişi yoxlamaq istəyirəm. Görüm nə vaxta çəkər. Hm. Az qalıb.**

**- Az qalıb? Nə az qalıb?**

**- Hələ bir soruşursan da.**

Qan-tər içində yuxudan ayılıb çaşqın-çaşqın qurumuş dodaqlarını yaladı. Sonra əlini döşündə gəzdirdi. Ölüm şişi təzədən yadına saldı.

Həkimin yanından çıxandan başılovlu orabura qaçırdı. Əvvəl-əvvəl bilmirdi kimin üstünə getsin, kimə ağız açsın. Ölüm xofu canına yayıldıqca saatbasaat, dəqiqəbədəqiqə əriyirdi: ümidini itirmiş adamlar kimi nəyi götürüb, nəyi qoyduğunu da dərk eləmirdi... İnsan hər şeyə alışdığı halda, ölüm xofuna alışa bilmir. O da alışa bilmirdi bu xofa. Elə xoflu-xoflu da təzədən başqa həkimin yanına getdi. Bu həkim də ona baxan həkimin dediyini təsdiq elədi, sonra bir qiymət oxudu ki, gözü az qaldı kəlləsinə çıxsın.

**- Özünüz bilin. - Həkim laqeyd-laqeyd baxışlarını qadının sağ döşündə gəzdirdi. - Həyatınız bir tükdən asılıdır. Təcili əməliyyat olunmasa - həkim sözlərini ara verdi. - Bilirsiniz də əməliyyatın qiymətini?..**

Həkimin istədiyi məbləğ də qeybə çəkilmişdi. Üzvü olduğu təşkilatın fond müdirinə xəstəliyi ilə əlaqədar ağız açsa da bir şey çıxmadı. Müdir iki əlini geniş açıb: - Yoxdu pul, yoxdu, - deyib onu başından eləmək istədi. Osa: - Başa düşün, - dedi, - mən xəstəyəm. Mən təcili əməliyyat olunmalıyam. Əgər gecikdirsəm... - İlk dəfəydi ki, yad kişinin qabağında kövrəldi.

**- Əməliyyat? Nə əməliyyat? Sizi başa düşürəm. Özümü pul eləməyəcəyəm ki. Olsa nə vardı ki, - Həmidənin - rəssam qadının göz yaşları deyəsən müdirin ürəyini az da olsa yumşaltdı.**

**- Vallah, nə deyim sizə, Həmidə xanım. Bir şey olsa... Yox, yox bizə ümid etməyin. Hər halda ev telefonuzu qoyun.**

**- Əgər siz kömək etsəydiniz, maaşımdan yavaş-yavaş çıxılardı...**

**- Yox, yox, mümkün deyil. - Müdir ayağa qalxdı. Yəni gedə bilərsiniz. Ordan çıxıb imkanlı, uzaq tanışlarına (xəstəliyini gizlədərək) pul sarıdan eşitdirsə də bir şey çıxmadı. Dünənsə onunla müqavilə bağlayan reklam rəhbərinin qəbuluna düşdü. Reklam rəhbəri işlərinin çox ləng getdiyindən şikayətlənib indi fondda pul olmadığını, gələcəkdə əgər pul yığılarsa, onu da nəzərdə tutacaqlarını əsnəyə-əsnəyə dedikcə ürəyi sıxılırdı. Ordan çıxanda başa düşdü ki, reklam rəhbərinin dedikləri nisyə söhbətdi. Onu ağlamaq tutdu. Qəribədir, bəs bu göz yaşları nə idi? Axı o, ağlamağı xoşlamırdı. İndi küçədə, yol getdiyi yerdə tanış üzləri, tanış simaları görəndə kövrəlir, ancaq dilinə gətirmək istədiyi sözləri ürəyindən qovurdu. Bir tərəfdən də bu iki-üç gündə Allah elə bil qəsdən onu sevən, ürəyinə yatan sənət dostlarıyla görüşdürürdü. Bəlkə o, son vida günlərini yaşayır? Tanışları, dostları rəssam qadının həyatındakı təhlü kəni hiss etmədən uzaqdan əl edir, ya yaxınlaşıb, üzlərində bir aləm sevinc, pamadalı dodaqlarıyla onu öpub:**

**- Mənim əzizim, krasavitsa, uğurlar olsun.**

Və yaxud: - Necəsən? İşlərin necə gedir? - deyib harasa tələsirdilər. Osa gözləri dola-dola onların ardınca baxırdı. "Mənə xeyirli işlər arzulayan xeyirxahlarım, axı siz hardan biləsiniz ki... mən nə haldayam".

Bu gün yenə də gedə-gedə, səssiz-səssiz ağlayaraq aranı dağa qatırdı, dağı arana. - Ay Allah, yenə ağlayıram. - əlinin arxasıyla gözünün yaşını sildi. Nədənsə dünyalarını dəyişən əzizlərini yadına saldı. Əvvəlcə atasını, sonra anasını, qarda- şını. Qardaşı cavan rəhmətə getmişdi. Onun ölümü faciəli oldu. Həmin itkinin ağrısını uzun müddət ürəyində gəzdirmişdi. İlk məhəbbətinin - heykəltəraşın isə məzarını tez-tez yuxuda görürdü. Yaşa dolandan sonra əvvəlki yorucu, yeknəsəq günlərini yaşamağa başlayanda, hamı kimi o da faciələrlə dolu hadisələrlə üzləşdi. Ermənilərin vəhşilikləri, torpaqların işğalı, sütül cavanlarımızın ölümü anbaan içini yeyirdi, ürəyini üzürdü. Hər faciəli xəbərdən sonra bir müddət özünə gələ bilmirdi. Bəlkə elə tibb aləminə hələ də nədən törəndiyi bilinməyən bu şoğərib xəstəlik o sarsıntıların nəticəsi idi. Kaş, indiki halı gerçəkdə yox, hər gün gördüyü yuxularında olaydı. Reklam üçün hər şey hazırlayardı. Lap qəpik-quruş versələr də, reklamdakı işini qurtarandan sonra hündürdaban ayaqqabılarıyla taqqatuq sala-sala, qaça-qaça yorulub əldən düşənəcən (yaş öz işini görsə də) sifarişçilərin sifarişlərini qəbul edəydi. Sonra vaxt tapan kimi rəfiqəsinin emalatxanasında işləyəydi və səhər yenə də əvvəlki yorucu işlərinin ardınca gedəydi. Gecələrsə şəhərin ucqarında yerləşən evinin satdığı pulla Bakıdan qaçmaq istəyən bir erməni qadınından ikiqat bahasına aldığı quş damına oxşar (guya mərkəzdə yerləşdiyi üçün qiyməti də baha idi) darısqal otağında dincini alandan, çörəyini yeyəndən sonra fırçasını əlinə alıb bir neçə saat qəlbinə yaxın insanları kətana köçürəydi.

Bu andıra qalmış şiş hardan peyda oldu axı? Doğrudanmı, həyatımın son günlərini yaşayıram? Yox, axı, həkim ona başqa söz də dedi: "Əlac var, əzizim, tələsmək lazımdır. Pul keçirməlisən". "Pul? Nə pul?" Əvvəlcə dövlətə pul keçirməlisən. Yüz dollar! Onunsa on dörd "şirvan" pulu var. Yüz qırx min. Yüz mini evdə, qırx mini çantasında. Məvacibinin yarısını təzəlikcə almışdı. Hə, əməliyyatın qiyməti isə. Əməliyyatın qiyməti - həkim, assistent, davadərman da içində - beş yüz dollar! Heç yuxusunda da bu qədər pulu olmayıb. Yox, bu mümkün deyil! Demək, onun ölümlə barışmaqdan savayı heç nəyə gümanı gəlmir.

Ölüm! Ölüm neçə gündür onun qabağında at oynadır. Sonra yaxınlaşıb irişə-irişə üzünə gülümsəyir, salam verir. Ürəyi əsə-əsə ölümün salamını alır.

**- Necəsən?**

**- Çox pis. Vəziyyətim yaxşı deyil.**

**- Bilirəm pisdir vəziyyətin. Elə ona görə də gəlmişəm deyəm ki...**

**- Demə. Heç nə demə. Bir az mənə möhlət ver. Yarımçıq işlərimi görüb qurtarım...**

**- Nə yarımçıqbazlıqdır, hazırlaş...**

**- Görmürsən, bu on ildə başımıza nələr gəlib? Bu faciələri çəkmək lazımdır axı.**

**- Çəkənlər tapılar. Bunu əvvəllər fikirləşəydin. Dar gününü də fikirləşəydin. Qayğını çəkən bir adam olsaydı, səni mənim əlimdən xilas edərdi. Səni istəyənlərə ağız büzdün. İndi otur, çək cəzanı. Nəyə arxalanırdın? Elə bilirdin öz gücünə, çiyinlərinin üstündə yaşaya biləcəksən? Bəs bilmirdin ki, insanın ağır günləri ola bilər? Elə bilirdin ömrün həmişə beləcə, axar su kimi davam edəcək? İndi bu ağır dəqiqələrdə, sənin başının üstünü kəsdirdiyim vaxtda həyatının xilası üçün bir insan bəndəsi tapılacaqmı? Sənə axırıncı dəfə xəbərdarlıq edirəm. Son günlərindir. Fikirləş!**

**- Elə bir adam yoxdur axı ona ağız açım. Yoxdur, yoxdur!**

**- Niyə yoxdur? İstəsəydin, olardı. Başıboş, ağılsız qadın. Ərə getmirdin, getmirdin... İmkan yaradaydın dərdindən ölənlərdən biri saxlayaydı səni. Lap elə məşuqə kimi.**

**- Elə söz demə! dilinə gətirmə o sözü!**

**- İndi belə şeylər dəbdədir. Bax, yaxşıyaxşı bax. Mənim caynağımdan qurtara bilməyəcəksən, ay yazıq. Məndən yaxanı qurtara bilmək üçün bəs yüz dolları hardan tapacaqsan? Bax bir yanına-yönünə... Sən ki ayıq, həssas qadınsan. Sən də "gözəlçələr" kimi yolunun səmtini dəyişməliydin. Onda sənə o qədər pul verənlər tapılardı ki... Eh, indi üzünü narın qırışlar örtüb, saçlarına da dən düşüb. Yaş gözəlliyini alıb əlindən. Axı əvvəllər sən gözəl idin, ağappaq dərin, məxmər kimi bədənin işım-işım işıldayardı. Çox adamın ağlını başından alan o mərmər bədənindən, gözəl üzündən nə üçün istifadə etmirdin, ay dikbaş qadın?**

**- Düz deyirsən... Mən doğrudan da, dikbaş idim. Kimi gəldi, acılayırdım.**

**- Yadındadı? Sənin xasiyyətindəki sərtlik, çılğınlıq da sonradan yarandı. Səni gözü götürməyənlər, ərə getməyə can atan bəzi iş yoldaşların səni sanca-sanca gəzirdilər. O yalançı "məcnunlar" da ağzı ətə çatmayan pişik kimi səni pusurdular. Onların da böhtanlarından təngə gəlirdin. Yadındadır, bir ara yaman sarsılmışdın. Başını götürüb Azərbaycandan getmək istəyirdin... həmişəlik.**

**- Yadımdadır. Getsəydim, bəlkə də indi əməliyyat üçün pul tapardım.**

**- Gedə bilmədin. Ayağın gedirdi, ürəyin yox. Tək özüm üçün yaşamaq istəmirəm deyirdin, vətəni atmaq hər adamın işi deyil.**

**- Etiraf edirəm... Vətənimi, mənliyimi hər şeydən üstün tutmuşam.**

**- İndi, ay zavallı, vətəni sevənə, mənliyə heç nə vermirlər. Bəs bilmirdin sənin yaşadığın həyat sənin xəyalındakı həyat deyil? İndi hər yerdə pul keçir. Pulla təmin olunan, aşnaları hesabına villalarda yaşayan qadınlardan sənin nəyin əskikdir? İndi həkimə nə üzlə getmək istəyirsən?**

Ölüm elə bil məhkəmə kürsüsündən ona hökmdən əvvəl öyüd-nəsihət verirdi.

**- Heç olmasa, tənhalığının xətrinə ərə gedəydin. Axı sən tək yaşamaqdan qorxduğun qədər heç nədən qorxmamısan. Yadındadır, heykəltəraşdan sonra səninlə ailə qurmaq istəyənlər çox idi. Nə? Nə dedin?**



**- Ürəyimə yatanı yox idi. Sevmədən ərə getmək istəmirdim.**

**- Lap elə heykəltəraşın özü olsun. Onu ki sevirdin, ona ki gedə bilərdin. O ki sevirdi səni.**

**- Anası mane oldu. Bildi ki, mən tək böyrəklə uşağa qala bilmərəm.**

**- Düz deyirsən. Əvvəlcə razı deyildi. O da acizlik elədi, anasının sözündən çıxmaq istəmədi, şəhərdən çıxıb getdi. Bəs sonra? Sonra nə oldu? O qayıtdı axı. Sənə çox yalvardı ki, ona ərə gedəsən. Sənin qabağında diz çökdü ki, onu bağışlayasan. Sənsə onu rədd elədin. Özündən uzaqlaşdırdın. Sən demə, o heykəltəraş öz yarısını səndə görübmüş. Eh, nə deyim sənə, ay zavallı, onu da bədbəxt elədin, özünü də. Nə? Qürurun yol vermədi? Sevgi olan yerdə nə qürurbazlıqdı?**

Ölüm köksünü ötürdü və sözü təzədən pulun üstünə gətirdi.

Səsindəki sərtlik o saat hiss olundu.

**- Hə, indi pul tapmalısan. Həkimin istədiyi məbləğdə pul tapmasan, caynağımdan qurtara bilməyəcəksən. Get axtar. Mən hələ gözləyirəm. Yaxşı-yaxşı fikirləş. Əlvida demirəm. Hələlik! Bildin?**

**- Bildim. - Yazıq-yazıq inildədi. - Gec-tez gələcəksən.**

***

Döşündəki şişi bu yaxınlarda hiss eləmişdi. Səhər corabını geyinəndə qolu təsadüfən döşünə toxundu. Sağ döşünün altında - qoltuq tərəfində qoz boyda şişi hiss elədi. Corab ayağının ucunda sallana-sallana qalxdı. Əlini döşündə gəzdirdi. Əməlli- başlı şiş idi. Rəngi ağardı. Necə olub ki, indiyə kimi hiss eləməmişdi. Ancaq axır vaxtlar halsızlıq onu üzürdü. Elə bilirdi ki, yorğunluqdandı. Sən demə, bu ... İndi gəl, bu şişin əlindən qurtar! Ölüm isə başının üstünü kəsdirmişdi.

Nədənsə ölümü tələbə vaxtlarında kirayə tutduğu evin sahibinə oxşadırdı. Arıq, beli donqar, cingöz bir kişi idi. Tez-tez içib qonşuları bir-birinə qatardı. O da ölüm kimi ayın axırına bir həftə qalmış kirayənişinlərinin başının üstünü kəsdirərdi ki, ev kirəsini verməlisiniz. Pulunun olmadığı vaxt gecəni cingöz kişini, bax, bu cür, ölümünü gözlədiyi kimi, ümidsiz-ümidsiz gözləyərdi. Bəzən də ev sahiblinin ağır sözlərini götürməmək üçün məvacibini alana qədər hara gedəcəyini, kimdən borc alacağını içində götür-qoy eləyər, səhəri diri gözlü açardı.

Evləri ən ucqar kəndlərin birində idi. Teztez evlərinə baş çəkə bilmirdi. Evin ilki olduğu üçün bacısıyla qardaşının qayğısı da onun üstündə idi. Ata xəstə, ana evdar qadın. Heç yerdən pul gəlmirdi. Neyləməliydi? Gözəl, zərif qız idi. Buna baxmayaraq, məcbur oldu ki, oxuduğu institutda əyani şöbə- dən axşama keçsin. İş tapmaqsa müşkül idi. Çox çətinliklə ix- tisasına uyğun olmayan - karton sexində - az maaşlı bir iş tapdı. İşsə yorucu idi. Kartonlar hazır olan kimi anbarlara daşımalıydı. İşdən sonra vaxt tapan kimi rəfiqəsinin emalatxanasına qaçıb saatlarla rəsmlər çəkərdi. Gündüzlərsə... Gündüzlərsə boş qalan vaxtlarını institutda oxuyan bacısıyla qardaşının yeməyinə, əyin-başlarına sərf edərdi. Günlərin nə vaxt ötdüyünü hiss etməyə-etməyə ora-bura qaçırdı. Bir tərəfdən də gözəlliyi başına bəla idi. Ona vurulanlar çox idi. Osa özü kimi pak, qüsursuz tayını gözləyirdi. İnstitutu qurtarandan sonra yaxşı oxuduğu üçün təyinatını muzeyə verdilər. Gənc rəssam qızın burada istedadı üzə çıxdıqca onun gözəlliyinə, qabiliyyətinə paxıllıq edənlər də tapıldı. Onu gözdən salmaq üçün qıza böhtan atırdılar, adına söz-sov da qoşurdular. Yersiz dedi-qodular xasiyyətini sərtləşdirmişdi. Lap özü deməkən, "vurağan öküzə" dönmüşdü. Ancaq muzey "vurağan" üçün ən əlverişli yer idi. Özünə, yaradıcılığına həsr etmək istədiyi vaxtı ancaq burada tapa bilirdi.

Lap kiçik vaxtlarından tənhalıqdan - tək yaşamaqdan qorxurdu, nə biləydi ki, illər keçəndən sonra tək qalacaq? Bəlkə də həyatı başqa cür olardı - o heykəltəraşla ulduzları barışsaydı. Ona vurulanlar içərisində ürəyini ancaq özündən on yaş böyük olan heykəltəraşa - Ələkbərə bağlamışdı. Bu, o vaxtlar idi ki, yaşı iyirmi birin içində idi. Heykəltəraşın görkəmi pis deyildi. Cins gödəkcədə, cins şalvarda tez-tez onu görmək üçün muzeyə gələrdi. Həmişə də əlində qızılgül. Bilirdi ki, Həmidə qızılgülü çox sevir. Sonra qoşalaşıb rəsmlərə baxardılar, ya da nahar fasiləsini gözləyib sahilə düşərdilər. Heykəltəraşın - Ələkbərin işi başından aşsa da, vaxt tapıb mütləq onu görməli idi. Ələkbər sənət əsərinə - gözəl tabloya baxanlar kimi gözünü ondan çəkməzdi.

Ələkbər ürəyinə girmişdi. Sevirdi onu. Dəlicəsinə sevirdi. Yolunu hər gün gözləyirdi və belə vaxtların birində Ələkbər Moskvaya bir illik ezam olundu. Bir il Həmidə üçün çətin keçdi. Gözü qapıda qalmışdı. Günlərini sayırdı. Ələkbərin gəlişinə beş-on gün qalmış Moskvada Azərbaycan rəssamlarının sərgisi açıldı. Gənc rəssamların əsərlərini nümayiş etdirmək üçün bələdçi kimi o da Moskvaya uçdu. Sevinirdi. Onu görəcəkdi... Görüşdülər. Heykəltəraşın fikri dağınıq idi. Tez-tez heç nədən əsəbiləşirdi. Sən demə, işi müsabiqədən keçməyib. Elə bil düşkünləşmişdi. Həmidəyə də etinasız idi. Ələkbər bir aya kimi xəstəxanada yatmalı oldu. Vətənə bir yerdə qayıtdılar. Yenə də hər gün görüş, yenə də sahil, axşamlar Həmidənin qaldığı evə ötürmələr... Bir dəfə bayramların birində Həmidəni evlərinə apardı. Anasıyla tanış etmək üçün. Anası yaxşı süfrə açmışdı. Evin rahatlığı, xörəklər, tort - hər şey ürəkaçan idi. Hiss olunurdu ki, ananın ürəyi Ələkbərə bağlıdır və ananın sözü də oğul üçün qanundur. Birdən söhbət xəstəlikdən düşdü. Anası öd kisəsindən şikayətlənirdi. Həmidə də orta məktəbdə oxuduğu vaxtlar böyrəyindəki əməliyyatdan söhbət açdı. Ələkbərin anasının rəngi avazıdı.

**- Necə, sizin böyrəyinizin birini?..**

**- Hə əməliyyat... çox yaxşı oldu. - Həmidə gülümsündü. - Narahat olmayın, bu, çoxdan baş verib. İndi hər şey qaydasındadır. - Qadının tutulduğunu hiss eləsə də, ağlına başqa bir şey gəlmədi.**

Həmin gündən sonra Ələkbər onunla teztez uşaqdan söz salırdı. Anam deyir ki, bizim övladımız olmaya bilər. Bu düzdü? Sən bu haqda nə bilirsən? Ələkbərin muzeyə gəlişi seyrəlirdi, soruşanda da deyirdi ki, işi başından aşır. Axır bir dəfə Həmidə özü dedi ki, istəyirsən gəlmə. O vaxt rəssam qız həyatının ən ağır günlərini yaşayırdı. Hətta əsəb sarsıntısı da keçirtdi və sonra vaxt hər şeyi yoluna qoydu. Çox qəribədir, yavaş-yavaş heykəltəraşı itirməyə alışırdı. Sevgi, görünür, ölüb gedərmiş. Sonra başını işə, oxumağa qatdı. Aspirantura, minimum imtahanlar, çəkdiyi rəsmlər... Gecə-gündüz çalışa-çalışa rəssamlar aləmində tanınmağa başladı.

Heykəltəraşın ailəsini, deyəsən, Həmidənin ahı tutmuşdu. Anası dünyasını tez dəyişdi. Bacısının da ailə həyatı gətirmədi. Çıxıb xaricə getdi. Ələkbərsə, eşitmişdi, evlənib bir polyak qadınla və nəyə görəsə ayrılıblar.

Beş ildən sonra rastlaşdı Ələkbərlə. Yaltada - Qara dənizin sahilində. Ezamiyyətinin qurtarmağına ikicə gün qalmışdı. Evə qayıdacaqdı. Çexovun yaşadığı evin səmtində dənizi, dənizdəki qayanı çəkdiyi yerdə heykəltəraş, şalvarının balağını çırmalamış vəziyyətdə, qumluğu, çınqıl daşları xırçıldada-xırçıldada yanından keçirdi. Bu gözlənilməz görüşdən ikisi də sarsıldı. Həmidə özünü ələ alıb Ələkbərə soyuqluğunu göstərmək üçün bir-iki kəlmə hal-əhvaldan sonra: "Məni bağışla, vaxtım yoxdu, bu eskizi qurtarmalıyam" - deyib fırçasını əlinə aldı.

Ələkbər axşam onu nömrəsində tapdı. Xeyli özündən, başına gələnlərdən, evlənib ayrılmağından danışdı. Həmidə laqeyd-laqeyd qulaq asırdı. Sonra saata baxıb əsnəyə-əsnəyə dedi ki, gecdi, xahiş edirəm, gedin. Mənim yuxum gəlir və bir də gəlməyin. İki günə vaxtım qurtarır, Bakıya uçmalıyam. Ancaq heykəltəraş ikinci gün də gəldi. Dedi ki, görünür, Allahın özü də bizim birləşməyimizi istəyir ki, bizi bu yad yerdə rastlaşdırıb. Gəl evlənək. - Bezmişəm belə həyatdan. Moskvadan da üzlüşəcəyəm. Qayıdacağam Bakıya. Anamın evləri durur. Orada yaşayarıq. Ələkbər uşaq kimi yalvarırdı. Deyirdi, gərək anamın sözünə baxmayaydım, gərək səndən uzaqlaşmayaydım. Elə gün yoxdur ki, səni fikirləşməyim. Arvadımla ayrılmağımın da sevgisiz evlənməyimdən oldu, doğrusu, sənə görə oldu. Səni unuda bilmirdim. O da mənim soyuqluğumu görüb başqasına qoşulub getdi.

**(ardı növbəti sayımızda)**